# Leyla Əliyevanın iştirakı ilə “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyətin açılışı olub

















**IDEA İctimai Birliyi tərəfindən həyata keçirilən “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət oktyabrın 11-də sakinlərin istifadəsinə verilib. Yenilənmiş həyət Bakının Xətai rayonu, Məzahir Rüstəmov küçəsi, 9, 11, 13, 17 ünvanında yerləşir və 2300 sakinin yaşadığı məhəlləni əhatə edir.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib. Leyla Əliyeva həyətdə aparılan abadlıq işləri ilə tanış olub, sakinlərlə söhbət edib, onlarla şəkillər çəkdirib.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə müxtəlif idman qurğuları qurulub, futbol, basketbol, şahmat meydançaları və uşaq meydançaları salınıb, velosiped yolu çəkilib. Həyətin ərazisində 13 söhbətgah inşa edilib, oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları və pişik evləri quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq həyətdə yeni işıqlandırma dirəkləri, təhlükəsizlik kameraları quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, yeni su xətti çəkilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq xüsusi karantin rejiminin qaydalarına riayət edilməklə 600 ağac əkilib.

Məhəllə sakini Namiq Mirzəyev saxladığı göyərçinlər üçün geniş yuvanın tikilməsinə görə minnətdarlıq edərək deyib: “Göyərçinlər çoxdandır ki, bizim həyətdə məskən salıblar. Onların yeri dar idi və havalandırmaları yox idi. Minnətdarıq ki, onlar üçün gözəl şərait yaradıblar. Yerləri geniş, yuvaları rahatdır. Göyərçinlərin sayı 80-dir. Yerin genişliyindən istifadə edərək saylarını artırmağa çalışırıq. Balacalara onlar haqqında məlumat verir, sülh rəmzi olduğunu başa salırıq. Tədbirlərdə sülh rəmzi kimi onları göylərə buraxırıq”.

İyirmi ilə yaxındır həmin məhəllədə yaşayan müəllimə Naibə Cəfərova bildirib ki, çox bərbad vəziyyətdə olan həyətin belə abadlaşdırılması, idman meydançalarının, uşaqlar üçün əyləncə yerlərinin quraşdırılması böyüklərlə yanaşı, balacaları da sevindirir: “Aparılan abadlaşdırma işləri zamanı bütün yaş qrupları, hətta sağlamlıq imkanları məhdud olanlar da nəzərə alınıb. Axşamlar ürək rahatlığı ilə həyətə düşür, açıq havada gəzir, söhbətgahda oturub söhbət edə bilirik. Balacalar da onlar üçün quraşdırılan əyləncə yerlərində doyunca əylənirlər. Uşaqlar futbol, şahmat, basketbol oynayırlar. Həmçinin həyətdə ağaclar da əkilib. Bu da həm həyəti daha da gözəlləşdirib, həm də məhəllə sakinlərinin sağlamlığına xidmət edir. Yaradılan şəraitə görə IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevaya təşəkkür edirəm”.

Təqaüdçü Xan Şəmsəddinovun sözlərinə görə, 20 ildir həmin məhəllədə yaşasa da, bu illər ərzində həyət heç vaxt belə abad olmayıb. O deyib: “Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən “Bizim həyət” layihəsi çərçivəsində xeyli sayda həyətin təmir olunduğunu və sakinlərin istifadəsinə verildiyini eşitmişdik. Çox sevinirik ki, layihə çərçivəsində abadlaşdırılan həyətlərdən biri də bizim həyət oldu. Ötən il dövlət başçısı Qarabağımızı azad edərək bizə çox böyük bir sevinc bəxş etmişdi. Bu il də həyətimizin abadlaşdırılmasının sevinci bizə qismət oldu. Prezident İlham Əliyev və onun ailə üzvlərinə xalqın sevincinə səbəb olan xeyirxah işlərinə, əhaliyə göstərdikləri diqqət və qayğıya görə minnətdaram”.

Qeyd edək ki, “Bizim həyət” layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Həmin layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar paytaxtımızın abadlaşdırılmağa ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələr IDEA İctimai Birliyinə təqdim edilə bilər.

Azərbaycan.- 2021.- 12 oktyabr.- S. 11.